# Dünyanın səkkizinci möcüzəsi

## *Neft Daşlarında açıq üsulla neft hasilatına başlanması dünya neft sənayesi tarixində mühüm hadisə idi*

**1970-1980-ci illərdə ümummilli liderimiz Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanda güclü iqtisadi potensial yaranmışdı. İri sənaye müəssisələri, fabrik və zavodlar tikilib istifadəyə verilmiş, yeni-yeni yaşayış məntəqələri salınmış, elektrik stansiyaları istismara verilmişdi.**

**Məhz o illərdə ölkəmizdə yaranan nəhəng sənaye müəssisələri, mədəniyyət ocaqları, infrastruktur obyektləri bu gün müstəqil Azərbaycanın uğurlu inkişafı üçün möhkəm zəmin, əsas, bünövrə yaratmışdır. Bu zəmin, bu özül üzərində müstəqil Azərbaycanımız inkişaf edir. Ulu öndər Heydər Əliyevin cəsarəti, müdrikliyi nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi nəinki mümkün olmuşdur, həm də bu tikinti başa çatdırılaraq təkcə ölkəmizə deyil, bütün regiona faydalar gətirməkdə, iqtisadi inkişafa və tərəqqiyə xidmət etməkdədir. BTC Azərbaycanın iqtisadi potensialını daha da gücləndirmiş, ölkə iqtisadi cəhətdən daha da inkişaf etmişdir. Bəli, Bakı-Tbilisi-Ceyhan neft kəməri möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, ümummilli liderimiz Heydər Əliyevin əsəridir. Heç də təsadüfi deyil ki, bu kəmərə Heydər Əliyevin adı verilmişdir. “Əsrin müqaviləsi” və ondan sonra imzalanan müqavilələr çox qısa bir müddətdə Azərbaycanın bölgənin ən güclü, qüdrətli dövlətinə çevrilməsinə imkan vermişdir.**

Müstəqilliyimizin, suverenliyimizin bizə verdiyi böyük imkanlardan yararlanan xalqımız bu gün ölkəmizin iqtisadi qüdrətinin artması naminə qüvvə və bacarığını əsirgəmir. Bu mənada yarandığı gündən bəri Azərbaycanın iqtisadi inkişafına və tərəqqisinə xidmət edən “Neft Daşları” NQÇİ-də bu gün yeni neft strategiyasının reallaşması üçün səylər daha da birləşdirilib. ARDNŞ və “Azneft” İB rəhbərliyinin köməyi, dəstəyi ilə yanaşı, idarə neftçilərinin, bütün kollektivin gərgin əməyi, zəhməti sayəsində Neft Daşları öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

### Qara Daşlar Neft Daşlarına necə çevrildi...

Neft Daşlarında çalışan adlı-sanlı neftçilər dünyanın səkkizinci möcüsəsinin, bu möcüzələr adasının tarixindən bu gün də həvəslə danışırlar. Neft Daşlarında neft və qaz ehtiyatlarının olması haqqında ilk geoloji məlumatlar çoxdan verilmişdi. XX əsrin əvvəllərində onun geoloji quruluşu tədqiq edilmiş, 1943-44-cü illərdə isə keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının sessiyalarında Neft Daşlarında neft təzahürü olması haqqında məruzələr edilmişdi.

1945-ci ildə A.Əliyevin başçılığı ilə SSRİ Elmlər Akademiyasının ekspedisiyası Neft Daşlarının tədqiqatına başlamış və bu iş 1948-ci ilə qədər davam etmişdir. Ekspedisiya Neft Daşlarının tektonika və statiqrafiyasını dəqiq təyin edir və A.Q.Əliyev Neft Daşlarında külli miqdarda neftin olması nəticəsinə gəlir.

1948-ci il noyabrın 14-də Neft Daşları ətrafında vəziyyəti öyrənmək məqsədilə kapitan Əjdər Sadıxovun idarə etdiyi “Pobeda” barkası ilə “Azneftkəşfiyyat” trestinin rəisi S.A.Orucov, “Dənizqazma” trestinin rəisi Y.A.Səfərov, tikinti-quraşdırma idarəsinin rəisi M.V.Roşin, geoloq A.Q.Əliyev və başqaları Neft Daşlarına gəlirlər və ilk quyunun qazılma yerini təyin edirlər.

1949-cu il yanvarın 5-də Bakı Vaqon Təmiri zavodunun hazırladığı evi V.İ.Roşinin rəhbərliyi ilə tikinti briqadası Neft Daşlarına gətirir. Süni dirəklər üzərində ilk ev 3 mart 1949-cu ildə tikilib başa çatdırılır. Hazırda da həmin ev Neft Daşlarında qorunub saxlanılır.

1949-cu ilin aprelində V.M.Roşinin rəhbərliyi ilə qülləquraşdıranlar briqadası tərəfindən qüllə, sonra isə Kəşfiyyat Qazma İdarəsinin direktoru N.X.Babayevin rəhbərliyi ilə qazma avadanlığı quraşdırılır. Onun əmri ilə ilk qazma briqadası və onun ustası M.P.Kaveroçkin təyin edilir. 1949-cu il iyunun 26-da 1 nömrəli kəşfiyyat quyusunun qazılmasına başlanır.

**1949-cu il noyabrın 7-də Bakı şəhərindən 110 km aralıda Xəzərin açıq qoynunda ilk neft quyusu sutkada 100 tona yaxın hasilatla fontan vurdu. Həmin gün “Möcüzələr adası”, “Dünyanın səkkizinci möcüzəsi”, “Polad dirəklər üzərində şəhər” və s. kimi adlandırılan əfsanəvi Neft Daşlarının doğum günü kimi tarixə daxil oldu. Qara Daşlar Neft Daşlarına çevrildi.**

S.Orucovun, Y.Səfərovun və A.Əliyevin təklifi ilə Bakı gəmi təmiri zavodlarından ömrünü başa vurmuş yeddi iritonnajlı gəmi gətirilərək Qara qayaların yanında batırıldı, çünki Neft Daşlarına fəhlələri, avadanlıqları gətirmək üçün gələn gəmilərin yan almasına şərait yaratmaq lazım idi. Bunun üçün yaxınlıqda olan adadan daş, kənardan qum gətirilib qayaların arasına doldurularaq süni ada yaradıldı. Beləliklə, süni “Yeddi gəmi adası” yarandı. Neftçi Qurbanın (Q.Abbasov) və M.Kaveroçkinin briqadalarının qazdığı yeni quyular, 1950-ci ilin dekabr ayında neft verdi və 1951-ci il fevralın 18-də neftlə dolu ilk tanker Neft Daşlarından yola salındı.

Neft Daşları sürətlə qurulmağa başladı, neftçıxarmanın maddi-texniki bazası möhkəmləndirildi, elmi müəssisələrlə əməkdaşlıq sayəsində müasir qazma və neftçıxarma üsulları tətbiq olundu. Həm hasilatın, həm də neftçilərin ehtiyaclarını ödəmək üçün mühüm obyektlərin tikilməsinə ciddi diqqət yetirildi.

Neft Daşlarında zəngin neft yataqlarının kəşf edilməsi və işlənməsi (Neft Daşları yatağı 1949-cu, Palçıq Pilpiləsi yatağı isə 1951-ci ildən istismar olunur) çoxsaylı mürəkkəb texniki problemlərin həll edilməsi sayəsində mümkün olmuşdur. **“Yeddi gəmi adası”ndan başlayaraq Neft Daşları ötən 65 il ərzində əsrlərə bərabər yol keçərək bu gün nəhəng istehsal-yaşayış kompleksinə çevrilmişdir.**

“Neft Daşları” NQÇİ-də çalışan mütəxəssislər deyir ki, 1967-ci ildə Neft Daşlarının əməkçiləri tərəfindən rekord miqdarda–7,6 milyon ton neft çıxarılmışdır. Lakin sonradan lay təzyiqinin təbii aşağı düşməsi və istismar olunan quyu fondunun azalması ilə əlaqədar neft hasilatı tempi aşağı düşməyə başlamışdır. Digər tərəfdən, tikilmiş estakadalar və kommunikasiya xətləri 10-15 illik istismar üçün nəzərdə tutulmuşdu, daimi fırtınalar və korroziya nəticəsində, xətlərin sıradan çıxması istehsal proseslərini xeyli çətinləşdirir. Fırtına və qasırğa nəticəsində baş verən qəzalar əlavə problemlər yaradır. Elə 1992-ci ilin noyabr ayında baş vermiş qasırğanı götürək. Bu qasırğa zamanı Palçıq Pilpiləsi yatağında estakada və meydançaların dənizə uçması nəticəsində neft, qaz, su xətlərinin vahid texnoloji sistemi pozulmuş, estakadayanı meydançalar süni özülə çevrilmişdir. Hasilatın bərpası, istehsal mexanizminin işə salınması xeyli vaxt, maddi, texniki, texnoloji və maliyyə vəsaiti tələb edirdi. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində ölkədə yaranmış vəziyyət, baş verən proseslər, təbii ki, neft sənayesindən yan keçməmişdi. 90-cı illərin ortalarında, xüsusilə “Əsrin müqaviləsi” imzalandıqdan sonra neft sənayesinin qarşısında duran vəzifələr Neft Daşlarında hasilatın enmə tempinin qarşısını almaq üçün fədakar addımlar atmaq zərurətini ortaya qoydu.



1996-cı ildən başlayaraq NQÇİ-nin rəhbərliyi, “Azneft” İB və elmi-tədqiqat institutlarının mütəxəssisləri ilə birgə bir çox texniki, texnoloji və s. amillərlə bağlı olan hasilatın enmə tempinin qarşısını almaq, istehsalın sabitliyini təmin etmək üçün kompleks tədbirlər müəyyən etdi. Fəaliyyətin əsas istiqaməti olan qazlift sisteminin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli tədbirlər görərək qapalı sistemin yaradılmasına nail oldu. Bu məqsədlə Palçıq Pilpiləsində əmələ gəlmiş süni özüllərə alçaq və yüksək təzyiqli qaz xətləri çəkildi. Qazsıxıcı maşınlar təsərrüfatında əsaslı dönüş yaradıldı. 1995-96-cı illərdə 11 maşın əvəz olunmadan işləyirdi və qəzalar zamanı sistemdə təzyiqin aşağı düşməsi qazlift quyularının iş rejimlərinin pozulmasına və xeyli neft itkisinə səbəb olurdu. Bu çatışmazlığı aradan qaldırmaq üçün 1998-ci ildə 8 maşın, 2000-ci ildə isə 4 maşın yenidən quruldu.

### “Möcüzələr adası”nın bu günü

Dəniz neftçiləri ötən ildə də plan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər. Tapşırığın yerinə yetirilməsi “bu günün işini sabaha qoyma — hər günün öz hökmü var” prinsipi ilə təmin edilir. Ağır dəniz şəraitində fədakar əmək tələb edən bir sıra mürəkkəb texniki-texnoloji proseslərin həyata keçirilməsi, nəzərdə tutulan tədbirlərin sürətləndirilərək vaxtından əvvəl yerinə yetirilməsi hasilatın artımına birbaşa təsir edir.

Belə ki, ötən ilin əvvəlindən bəri qazmadan nəzərdə tutulduğundan daha çox yeni quyu mənimsənilərək istismara buraxılmış, quyularda cari və əsaslı yeraltı təmir aparılmış, fəaliyyətsiz fonddan bərpa edilərək işə salınan quyuların sayı artmışdır.

Neft Daşları NQÇİ 2014-cü il üçün neft, qaz hasilatı və təhvili üzrə qarşıya qoyulmuş tapşırıqları yerinə yetirmişdir. Belə ki, ötən il ərzində 940020 ton neft hasil edilərək tapşırığa 100.0 faiz əməl edən qara qızıl ustaları 2015-ci ildə bu göstəriciləri daha da artırmaq əzmilə çalışırlar.

NQÇİ-də hazırda 467 istismar quyu fondu var, ondan da 93,8 faizi, yəni 438-i fəaliyyətdə olan quyu fondunu təşkil etmişdir. Bu quyu fondunun 378-i qazlift üsulu ilə, 57-si fontan, 3-ü isə dərinlik nasosu üsulu ilə istismar olunur.

NQÇİ üzrə qeyd edilən dövrdə qazmadan 18 quyu istismara daxil edilmişdir. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8 quyu çoxdur. Qazmadan alınan quyulardan neft hasilatı nəzərdə tutulduğundan xeyli çox olmuşdur. Neft Daşları yatağında qazma gedən, tikilən və tikintisi layihələndirilən 10 meydançadan 83 quyunun qazılması nəzərdə tutulmuşdur.

İdarənin rəisi Qaçalı Mahmudov deyir ki, son illərdə NQÇİ-nin neft-qaz hasilatı tapşırıqlarının artıqlaması ilə yerinə yetirilməsində elmi-texniki yeniliklərin, yeni texnika və texnologiyaların tətbiqinin də xeyli rolu olmuşdur. Belə ki, ARDNŞ-in elmi-tədqiqat müəssisələri ilə əməkdaşlığı genişləndirilmiş, İstehsalat Birliyinin dəstəyi və köməkliyi ilə müvafiq avadanlıqlar alınmış, yeni işlənmiş texniki-texnoloji tədbirlərin sınaq və tətbiqləri üçün lazımi şərait yaradılmışdır. Nəticədə hər il onlarca quyu istismara qaytarılmış, minlərlə ton əlavə neft hasil olunmuşdur.

2015-ci ildə tədbirlərin həcminin daha da genişləndirilməsi nəzərdə tutulmuşdur. ARDNŞ-in və “Azneft” İB-nin rəhbərliyinin köməyi ilə NQÇİ üçün lazımi texniki avadanlıqların alınması təmin edilmiş, təchizatla bağlı problemlər operativ həllini tapmışdır.

Neft Daşlarının 65 illiyini uğurla yola salan nefçilər 2015-ci ildə öz səylərini daha da artırmışlar. Xeyli abadlıq işləri aparılmış, qəsəbə ərazisində yeni parklar salınmış, ağac və gül kolları əkilmişdir.

### Sosial sahəyə qayğı–hasilata qayğıdır

Neft Daşları NQÇİ-nin digər sahələrində olduğu kimi, sosial sahələrində də olduqca dəyərli işlər görülmüş, böyük irəliləyişlər, nailiyyətlər əldə edilmişdir. İş yerlərində fəhlə və qulluqçular üçün yüksək səviyyəli iş şəraiti yaradılmış, əmək məhsuldarlığının artırılmasına, istehsalın səmərəliliyinin yüksəldilməsinə istiqamətləndirilmiş sosial amillər, işçilərin əmək və sosial fəallığı xeyli inkişaf etdirilmişdir. Hər sahədə savadlı, gənc kadrların düzgün yetişdirilməsi böyük effekt vermiş və bu gün bacarıqlı kadrların yetişməsinə nail olunmuşdur. Eyni zamanda məhz görülən işlərin nəticəsidir ki, istehsalat və əmək intizamı yüksəlmiş, əməkçilərin maddi rifah halı əvvəlki illərdən qat-qat üstün olmuşdur.

ARDNŞ-in rəhbərliyinin qayğısı və diqqəti sayəsində iş yerlərində, yataqxanada əsaslı və cari tikinti, təmir işləri görülmüşdür. Belə ki, əksər sex, briqada, idarə binaları müasir standartlar səviyyəsində yenidən qurulmuş, sex ərazilərində abadlıq işləri görülmüşdür.

Yataqxanaların, mədəniyyət evinin, kitabxananın dam örtükləri tam təmir edilmişdir. Yaşayış otaqlarında, dəhlizlərdə, ticarət-iaşə və sosial obyektlərdə əsaslı və cari təmir işləri görülmüş, ticarət-iaşə obyektlərində yerləşən elektrik sobaları, soyuducular yeniləri ilə əvəz edilmişdir.

NQÇİ-nin bütün əməkçilərinin xüsusi geyim formaları ilə təminatı yüksək səviyyədə təşkil edilmiş, əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunmasına diqqət yüksəldilmişdir.

Kitabxananın kitab fondu artırılmış, oxucular üçün kitabxanada hər cür şərait yaradılmışdır. Kitabxanada tez-tez poeziya gecələri, elmi konfranslar təşkil edilir.

“Azneft” İB-nin baş direktoru Daşqın İsgəndərov “Möcüzələr adası”nın qəhrəman neftçilərinin sosial problemləri ilə maraqlanır, onlara hər cür qayğı göstərir. Məhz bu qayğının bəhrəsidir ki, yeni neft strategiyasının reallaşması yolunda uğurlu addımlar atılır.

“Neft daşları” NQÇİ-də yeni 1954A saylı estakadayanı meydançanın inşası uğurla davam etdirilir. ARDNŞ-in “Neftqazelmitədqiqatlayihə” İnstitutunun layihəsi əsasında tikilən meydançanın baş podratçısı şirkətin “Neftqaztikinti” trestidir.

10 istismar quyusunun qazılması üçün nəzərdə tutulan meydança dənizin 17 metr dərinliyində yerləşdiriləcək. Burada qazılacaq quyulardan sutkada 100 ton neft hasil olunacağı gözlənilir. Layihə çərçivəsində indiyə kimi hidrotexniki hissədə işlər başa çatdırılmış, texnoloji avadanlıqlarla postament və dayaqlar, boru yığma meydançası və nasoslara xidmət meydançaları hazırlanmış, qülləaltı postament, dalma nasosları üçün şaxtalar, 2 ədəd minik və 2 ədəd yanalma meydançaları, 10 ədəd quyu istiqamətləndirici layihə yerində quraşdırılmışdır. Bundan əlavə, 2 ədəd yanalma və 1 ədəd xidmət meydançasının, texnoloji avadanlıqların və qazma qülləsinin quraşdırılması, meydançadaxili texnoloji boru kəmərinin çəkilməsi nəzərdə tutulur. İşlərin cari ilin sonuna kimi başa çatdırılması planlaşdırılır.

Əfsanəvi Neft Daşları NQÇİ-nin 65 illiyi ilə əlaqədar dünyanın səkkizinci möcüzəsi adlandırılan dəniz şəhərində yubiley tədbirləri keçirildi.

AzərTAc xəbər verir ki, bu münasibətlə 2014-cü il noyabrın 7-də Neft Daşlarına gələn Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyinin nümayəndələri ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə gül dəstələri düzüblər. ARDNŞ-in nümayəndələri, həmçinin 1957-ci ilin noyabrında Xəzəri fəth edərkən həlak olmuş neftçilərin xatirəsinə ucaldılmış abidə kompleksini, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş neftçilərin xatirə abidəsini də ziyarət ediblər. Sonra qaz seperasiya məntəqəsinin lay təzyiqinin saxlanılması sexinin arasında əvəzedici estakadanın açılışı olub. Estakada “Azneft” İstehsalat Birliyinin “28 May” neft və qazçıxarma idarəsinin sifarişi ilə “Neftqaztikinti” trestinin 4 nömrəli tikinti-quraşdırma idarəsi tərəfindən inşa olunub. Tikintisinə 2010-cu ildən başlanılan estakadanın uzunluğu 1515 metrdir.

**65 il ərzində Neft Daşlarında 180 milyon tondan çox neft, 14 milyard kubmetrdən artıq qaz hasil edilib. Bu müddətdə 2 min 174 quyu qazılıb, eyni zamanda, 300 kilometrə qədər estakada, estakadayanı meydança, özüllər və digər hidrotexniki qurğular tikilərək istifadəyə verilib.** 2010-2014-cü illər ərzində Neft Daşlarında 5 min 454 metr uzunluğunda estakada və 22 estakadayanı meydança əsaslı təmir edilib. 2010-cu ildən indiyədək 69 yeni quyu qazılıb və bu quyulardan oktyabrın 1-dək 670 min 861 ton neft hasil olunub. 2012-2014-cü illər ərzində lay və çirkab sularının utilizasiyası, dəniz suyunun saflaşdırılması və məişət tullantılarından təmizlənməsi, atmosferə atılan alçaq təzyiqli qazın yığılması və digər ekoloji layihələr həyata keçirilib.

65 il əvvəl Neft Daşlarında açıq üsulla neft hasilatına başlanması dünya neft sənayesi tarixində mühüm hadisə idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən neft strategiyasının uğurları ölkəmizin regionun və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.

Prezident İlham Əliyevin 2014-cü il 6 noyabr tarixli sərəncamına əsasən Neft Daşlarının 65 illiyi münasibətilə yatağın işlənməsində xidmətlərinə görə dəniz neftçiləri mükafatlara təltif olunub.

Dünyanın səkkizinci möcüzəsi sayılan Neft Daşlarında—dəniz şəhərində yaşayan və işləyən neftçilərimiz bundan sonra hələ çox uğurlara imza atacaq, Azərbaycanın iqtisadi inkişafı və tərəqqisi naminə neft və qaz hasilatını artıracaqlar.

**Tofiq ƏBDÜLHƏSƏNLİ,**
**“Respublika”.**